**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Tibbi-Sosial Ekspertiza Mərkəzi**
**ilə**
**Rusiya Federasiyası Səhiyyə və Sosial İnkişaf Nazirliyinin «Tibbi-sosial ekspertiza Federal Bürosu» Federal Dövlət İdarəsi**
**arasında**
**Tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sahəsində əməkdaşlıq haqqında**

# NiYYƏT PROTOKOLU

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Tibbi-Sosial Ekspertiza Mərkəzi və Rusiya Federasiyası Səhiyyə və Sosial İnkişaf Nazirliyinin «Tibbi-sosial ekspertiza Federal Bürosu» Federal Dövlət İdarəsi (bundan sonra «Tərəflər»),

tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sahəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə yönəldilmiş birgə səylərin qarşılıqlı dəstəklənməsinə çalışaraq,

aşağıdakılar haqqında razılığa gəldilər:

## MADDƏ 1

Tərəflər, tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sahəsində əməkdaşlığı inkişaf etdirir və genişləndirirlər.

## MADDƏ 2

Tərəflər arasında əməkdaşlıq aşağıdakı istiqamətlər üzrə həyata keçiriləcəkdir:

- Tibbi-sosial ekspertiza;

- Əlillərin reabilitasiyası, o cümlədən tibbi reabilitasiya (bərpa terapiyası, rekonstruktiv cərrahiyyə, protezləşdirmə və ortezləşdirmə), peşə reabilitasiyası (peşə yönümü, peşə təhsili, peşə-istehsalat adaptasiyası və işə düzəltmə), sosial reabilitasiya (sosial-mühit və sosial-məişət adaptasiyası);
- Ekspert-reabilitasiya diaqnostikası;
- Əlilliyin əmələ gəlməsinə, inkişafına və nəticəsinə təsir göstərən səbəblərin, amillərin və şəraitlərin öyrənilməsi, əlilliyin strukturunun və yayılmasının təhlili;
- Əlillərin sosial inteqrasiyası;
- Bir Tərəf dövlətin əlillərinin digər Tərəf dövlətin ərazisində yerləşən bərpa mərkəzlərində bərpa müalicəsinin təşkili;
- Əlillik sahəsində statistik müşahidə.

## MADDƏ 3

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

- tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sahəsinə aid olan qanunvericilik və normativ sənədlərin mübadiləsi;
- tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası məsələləri üzrə informasiya-analitik materialların və elmi tədqiqatların nəticələrinin mübadiləsi;
- Tərəflərin ekspertləri arasında məsləhətləşmələrin aparılması;
- Tərəflərin dövlətlərinin ərazilərində keçirilən konfranslarda, seminarlarda və digər beynəlxalq tədbirlərdə Tərəflərin ekspertlərinin, mütəxəssislərinin iştirakı;
- Tərəflərin mütəxəssislərinin ixtisaslarının artırılması və tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası sahəsində iş təcrübəsinin mübadiləsi məqsədilə ixtisasartırma və təlim səfərlərinin təşkil olunması;
- beynəlxalq forumlarda tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası məsələləri üzrə qarşılıqlı fəaliyyət və dəstək.

**MADDƏ 4**

Bu Niyyət Protokolu imzalandığı tarixdən qüvvəyə minir.

Bu Niyyət Protokolu qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən biri digər Tərəfi onu ləğv etmək niyyəti barədə yazılı bildirişin alındığı tarixdən etibarən altı aylıq müddət başa çatana qədər qüvvədə qalır.

**MADDƏ 5**

Bu Niyyət Protokolu Bakı şəhərində «23» oktyabr 2006-cı il tarixdə hər biri Azərbaycan və Rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Tibbi-Sosial Ekspertiza Mərkəzi | Rusiya Federasiyası Səhiyyə və Sosial İnkişaf Nazirliyinin «Tibbi-sosial ekspertiza Federal Bürosu» Federal Dövlət İdarəsi |